**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi (bundan sonra – "Tərəflər") statistika sahəsində əməkdaşlığın təşviq və inkişaf etdirilməsi, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların mübadiləsinin genişləndirilməsi və iki ölkənin statistika qurumları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər səlahiyyətləri çərçivəsində və öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı istiqamətlərdə əməkdaşlıq edirlər:

- texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla bağlı birgə səylərin dəstəklənməsi;
- beynəlxalq statistik standartların və metodların həyata keçirilməsi və tətbiqi sahəsində təcrübə və informasiya mübadiləsi;
- elmi və metodoloji tədqiqatlarda əməkdaşlıq və qarşılıqlı maraq doğuran layihələrin icrası.

Tərəflər həmçinin qarşılıqlı razılıq əsasında digər istiqamətlər üzrə əməkdaşlıq edə bilərlər.

**Maddə 2**

Tərəflər aşağıdakı vasitələrlə statistika sahəsində əməkdaşlığı dəstəkləyirlər:

- statistik nəşrlərin, metodologiyaya dair və digər müvafiq materialların mübadiləsi;
- digər Tərəfin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə telekonfransların və mütəxəssislər üçün təlim səfərlərinin təşkili;
- beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət.

**Maddə 3**

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq sahələrini beşillik iş planları vasitəsilə müəyyən edir. İş planlarında məqsədli tədbirlər, texniki və maliyyə öhdəlikləri, cədvəllər və qarşılıqlı əsasda razılaşdırılmış digər məsələlər təsvir edilir. İş planları Tərəflər tərəfindən təsdiq edilir.

## Maddə 4

Hər bir Tərəf bu Anlaşma Memorandumunun icrası məqsədilə kommunikasiyanın və əlaqələndirmənin həyata keçirilməsi üçün əlaqələndirici şəxs təyin edir.

## Maddə 5

Hər bir Tərəf statistik konfidensiallıq və məlumatların qorunması sahəsində digər Tərəfin dövlətinin milli qanunvericiliyinə riayət etməyi öhdəsinə götürür və digər Tərəfin əvvəlcədən yazılı razılığı olmadan nəşr olunmamış və açıqlanmamış məlumatların açıqlanmamasına və üçüncü tərəfə verilməməsinə zəmanət verir.

## Maddə 6

Bu Anlaşma Memorandumu heç bir Tərəfə digər Tərəfin hər hansı patent, müəlliflik hüququ, əmtəə nişanları, firma adları və ya xidmət nişanlarından istifadə hüququnu vermir. Digər Tərəfin əqli mülkiyyət hüquqlarından istifadə etmək və ya əqli mülkiyyətin birgə istifadəsi ilə nəticələnən fəaliyyətlər ilə məşğul olmaq üçün Tərəflər arasında ayrıca yazılı razılaşma əldə olunmalıdır.

## Maddə 7

Fəaliyyət və əlaqələrin işçi dili rus dilidir. Bu Anlaşma Memorandumu ilə bağlı bütün yazışmalar, eləcə də bütün hesabatlar rus dilində tərtib edilir.

## Maddə 8

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yaranan hər hansı fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

## Maddə 9

Bu Anlaşma Memorandumuna əlavə və düzəlişlər Tərəflərin qarşılıqlı yazılı razılığı ilə edilə bilər. Belə əlavə və düzəlişlər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilir və bu Anlaşma Memorandumunun 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minir.

## Maddə 10

Bu Anlaşma Memorandumu Tərəflərin diplomatik kanallar vasitəsilə onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişi aldığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən heç biri onu ləğv etmək niyyəti barədə ən azı 6 (altı) ay əvvəl diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə məlumat vermədikdə, avtomatik olaraq növbəti 5 (beş) illik müddətə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2025-ci il 26 sentyabr tarixində, hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri ilə bağlı fərqlilik yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edirlər.

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından**

**Tahir Budaqov**
**Sədr**

**Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi adından**

**Camşed Nurmaxmadzoda**
**Direktor**